Agatha Christie

# YATAN ÖLÜM

İngiliscədən tərcümə:
İlahə Sultanova

qanun nəşriyyatı

Agatha Christie

# SLEEPING MURDER

25 yaşlı gənc Qvenda Rid səyahətə çıxmışdı. Xanımı Gilesin ona qoşulub-qoşulmayacağı hələ dəqiq deyildi. O, Qvendanın əvvəlcədən İngiltərəyə gedib ev axtarmasını təklif etmişdi. Hər ikisi daimi bir yaşayış yeri istəyirdi. Giles zaman-zaman səyahətlərə çıxırdı. Bəzən bu səyahətlərdə Qvenda da iştirak edirdi. Bəzən isə şərait uyğun gəlmədiyi üçün Qvenda yoldaşını müşayiət edə bilmirdi...

Gilesin xalası vəfat etdiyi zaman bütün ev əşyalarını ona miras qoyur. Bundan sonra şəxsi ev onlar üçün əlçatan arzuya çevrilir.

Maddi vəziyyəti düzələn Qvenda və Giles heç bir çətinlik yaşamır. Özlərinə uyğun bir ev tapırlar. Hadisələr də bundan sonra başlayır.

Görəsən, bu ev lənətlənmiş və ya cadulu deyil ki?..

## Mündəricat


Fəsil 1. Ev ........ 7
Fəsil 2. Divar kağızı ........ 17
Fəsil 3. Üzünü ört ........ 31
Fəsil 4. Helen? ........ 39
Fəsil 5. Keçmişdə qalan cinayət ........ 46
Fəsil 6. Detektivlik məşqləri ........ 61
Fəsil 7. Həkim Kennedi ........ 72
Fəsil 8. Kelvin Hallideyin şübhələri ........ 85
Fəsil 9. Bilinməyən səbəblər ........ 92
Fəsil 10. Bir cinayət işi ........ 102
Fəsil 11. Həyatındakı adamlar ........ 110
Fəsil 12. Lili Kimbl ........ 127
Fəsil 13. Volter Feyn ........ 131
Fəsil 14. Edit Paqet ........ 138
Fəsil 15. Bir ünvan ........ 150
Fəsil 16. Anasının oğlu ........ 154
Fəsil 17. Riçard Erskin ........ 163
Fəsil 18. Sarmaşıq ........ 184
Fəsil 19. Cənab Kimbl danışır ........ 190
Fəsil 20. Helen adlı qız ........ 194
Fəsil 21. Ceki Afflik ........ 205
Fəsil 22. Lili görüşə gəlir ........ 220
Fəsil 23. Kim? Hansı? ........ 235
Fəsil 24. Meymun pəncələri ........ 253
Fəsil 25. Torquayda bir qeyd ........ 269

## FƏSİL 1

# *Ev*

Qvenda Rid azacıq titrəyirdi və bu halda gəminin göyərtəsində dayanmışdı.

Bərə, xüsusi anbar və gözünün görə bildiyi bütün İngiltərə dalğaların hərəkəti ilə bir o yana, bir bu yana yellənirdi.

Həmin o anda çox önəmli hadisələrə yol açacaq qərarı vermişdi.

Londona əvvəlcədən planlaşdırdığı kimi, qayıqla getmək fikrindən daşındı.

Bəs o, niyə belə bir addım atmalı idi? Onu gözləyən, onun gəlməsi üçün səbirsizlənən bir kimsə yox idi. Bir az əvvəl yırğalanan gəmidən enmişdi (Körfəzdən keçərək, Plimut şəhərinə doğru 3 günlük bir yoldan gəlib çatmışdı) və yeganə istəyi yenidən o gəmiyə minmək idi. Torpaq üstündə yerləşən gözəl bir hotelə getmək istəyirdi. Cırıldamayan və yırğalanmayan rahat çarpayıya uzanmaq haqda düşünürdü. Bundan sonra isə yuxuya gedib dincəlmək qalırdı. Necə də möhtəşəm bir plan idi. Sonrakı gün isə maşın kirayələyərək yavaş-yavaş, heç yerə tələsmədən Giles ilə

planlaşdırdıqları kimi, gözəl bir ev tapmaq üçün İngiltərənin cənub hissəsini gəzməyi düşünürdü. Bütün bunlar çox gözəl planlar idi.

Bu gəzinti vasitəsilə İngiltərəni gəzə biləcək – bir çox Yeni Zelandiyalı kimi İngiltərəni doğma ev adlandırmasına baxmayaraq – indiyə kimi görmədiyi, Gilesin ona danışdığı gözəl yerləri görmək imkanı əldə etmiş olacaqdı. Hal-hazırda İngiltərə elə də göz oxşamırdı. Yağışın tezliklə başlayacağına işarə olan boz səma və güclü külək insanı narahat edirdi. Qvenda pasport və gömrük sırasında yavaş-yavaş irəliləyərkən Plimut şəhərinin İngiltərənin heç də ən gözəl şəhəri olmadığını düşünürdü.

Halbuki ertəsi gün bu haqda fikirləri tamam başqa idi. Günəş parıldayır və pəncərədən görünən mənzərə göz oxşayırdı. Və ən əsası da dünya artıq dalğalanmır və yellənmirdi. Artıq vəziyyət stabil idi. Əsl İngiltərə elə məhz bu idi və iyirmi bir yaşlı, evli, gənc Qvenda Rid səyahətə çıxmışdı. Gilesin İngiltərəyə qayıdıb-qayıtmayacağı hələ dəqiq deyildi. Bir neçə həftə ərzində və yaxud altı ay sonra Qvendanın tətilinə o da qoşula bilərdi, halbuki bütün bunlardan sonra necə olacağı məlum deyildi. O, Qvendanın əvvəlcədən İngiltərəyə gedib, ev axtarmağa başlamasını təklif etmişdi. Hər ikisi daimi bir yaşayış yeri olması fikrini çox bəyənmişdi. Gilesin işi zaman-zaman müəyyən səyahətlərə çıxmağı tələb edirdi. Bəzən bu səyahətlərdə Qvenda da ona qoşulurdu, bəzən isə şərait uyğun olmadığı üçün Qvenda yoldaşını müşayiət edə bilmirdi, halbuki özlərinə aid doğma bir evin olması fikri onları həyəcanlandırırdı. Gilesin xalası vəfat etdiyi zaman bütün ev əşyalarını ona miras qoymuşdu, bütün bu baş

verənlərdən sonra yeni və daimi yaşayacaqları bir ev almaq onlar üçün əlverişli idi.

Maliyyə cəhətdən vəziyyətləri kifayət qədər yaxşı olduğu üçün Qvenda və Giles heç bir çətinlik yaşamırdı.

Qvenda əvvəlcə tək başına yeni bir ev seçmək fikri ilə razılaşmadı.

– Biz bunu birlikdə edə bilərik, – deyə Gilesə bildirdi.

Giles isə gülərək ona belə qarşılıq verdi: – Bildiyin kimi, ev məsələsində o qədər də bacarıqlı deyiləm. Sən bunu istədiyin təqdirdə isə bir şey etməyə çalışaram. Əsasən, cənub sahilində yerləşən, şəhərdən çox da uzaq olmayan, kiçik həyətyanı sahəsi olan bir ev almağı düşünürəm.

– Bəs istədiyin xüsusi bir yer var? – deyə Qvenda soruşdu. Giles isə qarşılığında xüsusi bir yer olmadığını söylədi. Uşaqlıqdan yetim və yalqız qalan Giles (hər ikisi uşaq evində böyümüşdü) sadəcə, bəzi bayramları qohumlarla birlikdə keçirdiyindən heç bir məkan və yer onun üçün xüsusi əhəmiyyət kəsb etmirdi. Evi birlikdə seçmələri üçün Gilesin işləri səbəbindən altı ay gözləməli idilər. Qvenda bu müddətdə nə edə bilərdi? Bu altı ayı ancaq hotellərdə keçirməli idi? Qvenda bu zaman ərzində ev tapmağı və yeni evə köçməyi planlaşdırırdı.

– Deməli, bütün işləri mənim görməyimi nəzərdə tutursan, – deyə Qvenda qeyd etdi.

Əslində yeni ev tapmaq, ora köçmək və Giles gəldiyi zaman rahat şəkildə həyatlarını yaşamaq fikrini çox bəyənmişdi.

Üç ay əvvəl evlənmiş olan bu cütlük bir-birilərini çox sevirdi. Yatağında səhər yeməyini yedikdən sonra ayağa qalxdı və nələr et-

məli olduğunu müəyyənləşdirdi. Bir gün boyunca sadəcə, Plimut şəhərini gəzdi. Növbəti gün isə bir maşın və sürücü kirayələyərək İngiltərəyə doğru yola çıxdı.

Hava çox gözəl olduğundan bu səyahətdən olduqca zövq alırdı. Devonda bir neçə yaşayış yeri tapsa da, lakin bu yerlər onun istəyinə uyğun deyildi. Tələsməyə ehtiyac olmadığından, axtarmağa hələ də davam etməyi düşünürdü. Maklerlərin ev haqqındakı ətraflı və həvəsli təsvirlərini anlamağa başlayaraq  bir çox mənasız işlərdən canını qurtarmağa nail olmuşdu.

Bir həftə sonra çərşənbə axşamı maşın əyri dağ yolunda yavaş-yavaş irəliləyərək Dilmausa gəlib çatdı və şirin, balaca bir qəsəbənin qurtaracağındakı “Satılır” lövhəsinin önündən keçərkən, ağaclar arasında yerləşən kiçik, ağ rəngli, Viktoriya tərzində tikilmiş villa diqqətini çəkdi.

İlk görüşdə, bu ev ona xoş və doğma gəldi, sanki bu evi əvvəlcədən tanıyırdı. Bəli, o artıq xəyalındakı evi tapmışdı, artıq  buna tam əmin idi. Evin həyətini, yüksək pəncərələrini gözündə canlandıra bilirdi. Onun istədiyi də məhz belə bir yer idi.

Gec olduğundan Royal Klarens hotelinə yerləşdi, növbəti gün isə birbaşa olaraq adını qeyd etdiyi maklerin yanına getdi.

Qısa müddətdən sonra isə evi gəzmək üçün əlində icazə kağızı ilə köhnə tərzdə döşənmiş qonaq otağında dayanmışdı, otağın fransız stilindəki iki pəncərəsi terrasa baxırdı. Terrasın qarşısında daşlarla haşiyəyə alınmış kiçik bir gül bağçası var idi. Sarmaşığın budaqları çəmənliyin hər bir tərəfini əhatəyə almışdı. Bağçadakı ağacların arasından dənizi görmək mümkün idi.